# Koronavirus

Ötən həftə dünyada 3 milyona yaxın yoluxma və 55 mindən çox ölüm faktı qeydə alınıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Cenevrə şəhərindəki mənzil qərargahının məlumatına görə, ötən həftə yoluxma halları önсəki yeddi günlə müqayisədə 10 faiz, ölüm halları isə 3 faiz artıb.

Yeni yoluxanların ümumi sayı, önсəki həftəyə nisbətən 10 faiz artaraq demək olar ki, 3 milyon nəfərə çatıb", - deyə təşkilatın həftəlik epidemioloji bülletenində bildirilir.

Eyni dövr ərzində koronavirus səbəbindən 55 mindən çox insan ölüb ki, bu da önсəki həftə ilə müqayisədə 3 faiz çoxdur. Buna qədər ölüm hallarında iki aydır azalma müşahidə edilirdi.

İyulun 5-dən 11-dək dünyada 2 milyon 996 min 465 yoluxma və 55 min 830 ölüm faktı qeydə alınıb. Pandemiyanın statistikasını aparan "Worldometer" saytının məlumatına görə, indiyə qədər dünyada 188 milyon 622 min nəfərdən çox insan virusa yoluxub, 4 milyon 65 mindən çox insan isə həyatını itirib.

Koronavirusların mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni variantlar bütün dünyada ciddi narahatlıq doğurur.

Azərbaycanda aparılan araşdırmaların növbəti mərhələsində son dövrdə ölkə xaricindən gələn şəxslərdən alınmış nümunələrdən 31-də B.1.617 (Delta) variantı, 9-da B.1.1.7 (20 Alpha V1, Britaniya) variantı aşkar olunub.

Delta ştammı ilk dəfə 2020-ci ilin payızında Hindistanda aşkar olunub. Bu variant Rusiya və Britaniya da daxil olmaqla, bir sıra ölkərdə artıq dominant varianta çevrilib.

Britaniya Səhiyyə Sisteminə əsasən, Delta Alphadan 60 faiz daha çox yoluxucudur.

Ümümdünya Səhiyyə Təşkilatı bildirir ki, bu ştamm dünyanın 85 ölkəsində yayılıb. İlkin məlumatlara görə, Delta ilə bağlı yeni simptomlar üzə çıxıb. Həkimlər öskürək, yüksək qızdırma, iybilmə və dadbilmə hissinin itirilməsiylə yanaşı, baş, boğaz ağrısı və güclü burun axması kimi yeni simptomların olduğunu qeyd edirlər. Təbii ki, bu simptomlar koronavirusa yoluxmanın birmənalı təsdiqi kimi qəbul olunmamalıdır. Odur ki, mütəxəssislər onlara diqqət yetirməyi tövsiyə edirlər.

Dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə olunmuş nəticələrin təhlili bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Bu gün ölkəmizdəki sabit epidemioloji vəziyyəti aparılan vaksinasiyaya borcluyuq. Unutmamalıyıq ki, vaksinasiya ilə yanaşı, fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalar, virusun mutasiyaya uğramış variantından asılı olmayaraq, xəstəlikdən qorunmağın, dünyada və ölkəmizdə normal həyata qayıtmağın yeganə yoludur.

Pandemiyanın sonunu görmək və gələcəyə sağlam addımlamaq üçün mütləq peyvənd olunmalıyıq.

Hazırkı dövrədək ölkədə vurulan vaksin dozalarının ümumi sayı 4 milyon 159 min 298-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 494 min 551, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 664 min 747 nəfərdir.

**Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət**

| Ümumi | | Bu gün 16.07.2021 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 337970 | Yeni yoluxanların sayı | 169 |
| Ümumi sağalanların sayı | 331112 | Yeni sağalanların sayı | 92 |
| Aktiv xəstə sayı | 1868 | Bugünkü test sayı | 8628 |
| Ümumi test sayı | 3894683 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 4990 | | |

# Xalqın xidmətində

İnsanoğlu dünyaya göz açdığı gündən etibarən öz həyatı, gələcəyi uğrunda mübarizə aparır. Həyatın bütün çətinliklərinə qarşı dik dayanaraq, istədiyi, məqsəd qoyduğu yerlərə çatır. İnsan elə bir varlıqdır ki, bu həyatda hər şeyə qadirdir. Bu həyatda insanın yiyələnə bilməyəcəyi peşə yoxdur.

İnsan o zaman xoşbəxt ola bilər ki, öz həyatını, fəaliyyətini, peşəsini çox sevsin, dərk etsin ki, bu peşə insanlığa lazımdır və onun əməyi xalqa fayda gətirir. Bəzi peşələr var ki, onlar qəhrəmanlıqdır, hünər deməkdir. Həmin peşələr insandan fədakarlıq, pak niyyət tələb edir. Buna isə hər kəs qadir ola bilməz. Bunun üçün insanın fikri aydın, qəlbi təmiz olmalıdır.

İllər bir göz qırpımında keçir, artıq məktəb həyatı başa çatır. Qarşısına isə çox önəmli bir sual çıxır. Hansı peşəni seçməli? Bəziləri isə bu sualı özünə vermir. Çünki öz seçimini kiçik yaşlarından edir və qarşısına məqsəd qoyaraq mübarizə aparır.

Onun mübarizəsi isə enişli-yoxuşlu olur. Həm ailəsinə dəstək olur, həm də məqsədinə çatmaq üçün gecə-gündüz dayanmadan çalışır. Zəhmətkeş çoban ailəsində dünyaya göz açan Abdüləzizov Hökümran Qani oğlu bu gün uşaqlıqdan arzusu olan peşənin layiqli davamçılarından biridir. O, 1961-ci ildə soyuq qış aylarında-dekabrın 15-də Qəbələ rayon Yeni Dizaxlı kəndində dünyaya göz açıb. Dünyaya göz açdığı gündən etibarən həyat onun üçün ağ vərəq kimi başlayır. Ailəsi çox böyük çətinliklərlə də olsa onu böyüdür və xalqına layiqli bir həkim yetişdirir.

**Deyirlər ki, özü kimi mərd olub; nəsli, soyu...**

Hökümran həkim 1978-ci ildə artıq öz arzuladığı peşəsinə bir addım daha yaxınlaşır və Bakı 2 nömrəli tibb texnikumuna daxil olur. O iki il hərbi xidmət də daxil olmaqla, həmin məktəbi bitirir və doğma yurduna qayıdır. Həm də saflığın, təmizliyin rəmzi olan ağ xalatla, öz yurduna dəva olacaq həkimlik savadı ilə. Qəbələ Rayon Mərkəzi Xəstəxanasının infeksion şöbəsində tibb işçisi kimi çalışdığı dönəmdən etibarən el içində, iş kollektivində hörmət qazanır, neçə-neçə xəstənin ümid yerinə çevrilir. Artıq ona el içində "şəfalı əllər sahibi" deməyə başlayırlar. Uşaqlığından arzusunda olduğu peşənin sahibi olan Hökümran həkim, onun həyatında, bu yerlərə gəlib çıxmasında böyük rolu olan əmisi Qəniyev Pirəmmədin və valideynlərinin fəxri olur.

Hökümran həkimin sakinlər arasında qazandığı hörmət qonşu kəndlərdə də əks-səda doğurur. Artıq Hökümran həkim 32 ildir ki, dünyaya göz açdığı, böyüyüb, boya-başa çatdığı Yeni Dizaxlı kəndində tibb işçisi, mama məntəqəsində məntəqə müdiri vəzifəsində çalışmağa başlayır. Artıq o öz kəndlilərinə daha yaxın olur, burada sənətini sevə-sevə davam etdirir, hər kəsin dərdinə dəva olmağa çalışır. Ona müraciət edən hər kəs o şəfalı əllərin sayəsində şəfa tapır. İnsanlara yardım etmək, dərdlərinə şəfa tapmaq Hökümran həkimi daim sevindirir, çünki əzəldən istəyirdi ki, insanlara yardım etsin, sağlamlığı keşiyində dayansın, həmçinin insanlara qarşı həmişə xeyirxah olsun. Onun bu istəyi də əziyyətlə böyüdüyü mühitlə, gördüyü tərbiyə ilə bağlıdır.

Həyatın zülmlü, əziyyətli tərəfini görən Hökümran həkim, hər kəsə dərman olarkən öz övladına çarə ola bilmir və bir oğul övladı vaxtsız dünyasını dəyişir. Hazırda isə onun bir oğlu var. Hökümran həkim öz gördüyü əziyyətdən sonra ailəsinə də, övladlarına da halal və zəhmətlə yaşamağı aşılayır; özü kimi bir mərd oğul bəxş edir cəmiyyətə.

Təvazökar insan olan tibb işçisi kəndin fəxr edilən bir sakinidir. Öz mehriban və qayğıkeşliyi ilə kənd camaatının, eləcə də onu tanıyanların rəğbətini qazanmışdır.

**Cəlil SƏFƏRÇİNOV,**
**Yeni Dizaxlı kənd sakini.**

# Qəbələnin buğda sahələrində orta məhsuldarlıq 34,5 sentnerdir



Qəbələ rayonunun təsərrüfatlarında taxıl biçini kampaniyası yekunlaşmaq üzrədir. Cari mövsümdə rayonda 19 min 562 hektar taxıl sahəsinin məhsulunun biçilməsi nəzərdə tutulub. Bu günədək 16 min 600 hektar taxıl sahələrinin məhsulu biçilmişdir. Arpa sahələrində hər hektardan orta məhsuldarlıq 31,1 sentner, buğda zəmilərində isə 34.5 sentnerdir. Rayonda hələlik biçilməmiş 2962 hektar buğda sahəsi qalır. Arpa sahələrində isə biçin tam başa çatmışdır.

## ELAN

Qəbələ bələdiyyəsinə vergilər şöbəsinə işçi tələb olunur.

## İTMİŞDİR

Qəbələ Rayonu Qəbələ bələdiyyəsinin 50 nömrəli qərarı ilə Qəbələ şəhər sakini **Əsədov Mübariz Varis oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0661 nömrəli (kod 40601004) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər İ.B.Qutqaşınlı küçəsi ev 6 ünvanında yaşayan **Əzizov Tərlan Nazim oğluna** məxsus, buraxılış ili 1999-cu il, Mersedes Benz ATEQO xüsusi təyinatlı avtomobilin **99 XT 588 qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Bərdə rayon Soğanverdilər kənd sakini **Aslanov Məhərrəm Yusif oğluna** məxsus, buraxılış İli 1983, VAZ 2105 minik avtomobilinin **10 BR 551 qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 26.08.2015-ci il tarixdə Qəbələ rayon Zarağan kənd sakini **Həşimov Elşən Heybət oğluna** verilmiş RX seriyalı 0704664 nömrəli (reyestr nömrəsi 406013061247) **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 25.08.2015-ci il tarixdə Qəbələ rayon Zarağan kənd sakini **Həşimov Elşən Heybət oğluna** verilmiş RX seriyalı A 008928 nömrəli (reyestr nömrəsi 406013061247) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Mingəçevir şəhər sakini **Zeynalova Sezalina Cümşüd qızına** məxsus torpaq sahəsinə aid AA № 517699 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər S. Vurğun küçəsi ev 1 ünvanında yaşayan **Osmanov Tərlan Yaşar oğluna** məxsus 24.12.2019-cu il tarixdə verilmiş **AF 229278 nömrəli sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2021-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56



Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1200*